BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Humanitar elmlər seriyası 2015*

UOT 94(3)

# XV-XVI ƏSRLƏRİN HÜDUDUNDA LEVANT BÖLGƏSİNDƏ BEYNƏLXALQ DURUM

**S.Ə.ZEYNALOVA**
***Bakı Dövlət Universiteti***
***sevinc_zeynalova@hotmail.com***

*Müstəsna əlverişli coğrafi mövqeyi olan Levant hələ qədim dövrlərdən Şərqlə Qərb arasında ticarətdə vasitəçi idi: onun Trablis, Dəməşq, Beyrut, Sidon və Tir kimi şəhərləri mühüm ticarət məntəqələri idi.*

*Osmanlı fəthlərindən sonra Levantın Avropa ilə ticarəti xeyli məhdudlaşdı. Osmanlıların Qərbi Avropadakı fəthləri bir müddət Avropanı Levantda baş verənlərdən uzaqlaşdırmışdı.*

*Qərbə sıxışdırılmış və Yüzillik müharibədən (1337-1453) sonra qitədə bütün mülklərini itirmiş İngiltərə isə Avropa siyasətindən ayrı düşmüş və XVI əsrin ortalarınadək Avropa siyasətində ikinci dərəcəli rol oynayırdı. XVI əsrin birinci rübü isə onun üçün daxili qüvvələrin konsolidasiyası və dünyada gedən iri siyasi aksiyalardan kənarlaşma dövrü olmuşdur. Sahibkarlığın sürətlə inkişafı İngiltərənin beynəlxalq ticarət əlaqələrində fəal iştirakı üçün çox böyük zəmin idi. İngilis istehsalında baş verən struktur dəyişiklikləri ticarətin xarakterinə də təsir göstərməyə bilməzdi. İngiltərə üçün daha geniş istehlak bazalarına ehtiyac var idi. Bu baxımdan Levant bölgəsi İngiltərəni cəlb etməyə bilməzdi.*

**Açar sözlər:** Aralıq dənizi, diplomatiya, ticarət, İngiltərə, Osmanlı

Son orta əsrlər və ya Erkən Yeni dövrün başlanğıcında beynəlxalq aləmdə baş verən dəyişikliklər, coğrafi kəşflər, Avropa dövlətlərinin əksəriyyətində mütərəqqi cəmiyyətin bərqərar olması yolunda ilk addımlar, heç şübhəsiz, Levant bölgəsinə də radikal təsir göstərməyə bilməzdi. Məhz bu dövrdə beynəlxalq iqtisadi münasibətlərin dünya sistemi formalaşır. Avropa dövlətlərinin müstəmləkələr əldə etmək uğrunda mübarizəsi beynəlxalq durumu müəyyən edən amilə çevrilir, beynəlxalq münaqişələr artır.

Avropada milli dövlətlərin təşəkkülü ilə əlaqədar beynəlxalq aləmdə birinci dərəcəli dövlətlər – İngiltərə, Fransa, İspaniya, Portuqaliya irəli çıxır. Xarici siyasətdə «dövlət marağı» ön plana keçdiyindən, dini amilin əhəmiyyəti azalır, nəticədə papalığın beynəlxalq proseslərə müdaxiləsi zəifləyir. Yaxın və Orta Şərqdə milli dövlətlərin əvəzinə iri imperiyaların mövcudluğu davam edir. İstər Qərbi Avropa dövlətləri, istərsə də müsəlman Şərqinin iri imperiyaları öz

maraqlarını güdərək beynəlxalq ticarət yollarını, xammal və istehlak mənbələrini ələ keçirmək və müstəmləkələri istismar etmək uğrunda gərgin mübarizəyə başlayır. Başqa sözlə desək, XV əsrin sonuna doğru beynəlxalq münasibətlərdə ən mühüm məsələ – müstəmləkə yaratmaq uğrunda başlayan mübarizə idi.

Hələ qədim dövrdə dünyanın mühüm ticarət mərkəzi olan və ayrı-ayrı dövrlərdə Assur, Əhəməni, İsgəndərin dövlətinin, Roma imperiyasının diqqət mərkəzində olan Levant bölgəsi orta əsrlərin sonuna doğru Osmanlı imperiyasının tərkibində idi və bu səbəbdən, Levant uğrunda mübarizə, əslində elə Avropa – Osmanlı münasibətlərinin tərkib hissəsi idi. Levant bölgəsində baş verən beynəlxalq əhəmiyyətli hadisələr də bu kontekstdə təhlil olunmalıdır. Xaç yürüşlərinin uğursuzluqla nəticələnməsinə baxmayaraq, Avropanın ticarət kapitalı üçün XIV-XV əsrlərdə geniş imkanlar açılmışdı. Şərq mallarına olan tələbat bir neçə dəfə artmışdı. Levant bölgəsində ticarət isə əvvəlkindən daha geniş vüsət almışdı. Aralıq dənizi sahillərinə digər Şərq ölkələrindən gətirilən mallar birbaşa istehlakçının əlinə düşməzdən əvvəl məhz Suriya, Misir şəhərlərində vasitəçilərdən keçirdi və daha sonra baha qiymətə ingilis, holland, fransız tacirlərinə satılırdı. Qiymətlərin kəskin şəkildə qaldırılmasında Levantın mühüm limanları olan Venesiya və Genuya da böyük rol oynayırdı. İtalyan tacirləri Şərq mallarını öz ölkələrinə aparır, oradan isə Reyn boyu şimali alman torpaqlarına ixrac edirdilər. Aralıq dənizinin şəhər-respublikalarında – Milanda, Pizada, Florensiyada sənaye inkişaf etmişdi, Genuyada və Venesiyada isə ticarət kapitalı üstünlük təşkil edirdi. Hələ Osmanlılardan xeyli əvvəl, XIV əsrin əvvəllərindən başlayaraq, Genuya və Venesiya öz aralarında qanlı düşmənçilik aparırdılar, onların arasında həmrəylik isə yalnız Barselona, Marsel və Lissabon tacirlərini Levant bölgəsindən sıxışdırmaq məqsədi ilə baş verirdi (10, 25).

Nə Fransa, nə İspaniya, nə Portuqaliya, nə də İngiltərə Levant ticarəti haqqında heç düşünə də bilməzdilər, çünki qüdrətli italyan respublikaları hər vasitə ilə buna mane olurdular. Məsələn, hələ xaç yürüşləri dövründə, 1166-cı ildə fransız ticarət mərkəzi Narbonna Genuya ilə belə bir şərtlə saziş bağlamağa məcbur olmuşdu ki, Aralıq dənizinin şərq sahillərinə (yəni Levanta) müəyyən olunmuş qaydada məhdud sayda gəmi göndərməli idi. Genuya və Venesiya artıq bu dövrdə Levant bölgəsində ticarəti inhisara salmaq cəhdləri edir. Təxminən 200 il ərzində bu iki respublika bir-birilərinin qatı düşməni olmuş, demək olar ki, bərabər səviyyədə getmişlər. Levant bölgəsinə və ümumiyyətlə, Şərqlə ticarətə çıxış əldə etmək üçün digər Avropa dövləti zəruri qüvvəni toplayanadək Genuya və Venesiya arasında «oyun heç-heçə davam etməkdə idi» (10, 23).

Osmanlı dövlətinin meydana gəlməsi (1299-cu il) və Qərbə hərəkəti, heç şübhəsiz, dünya əhəmiyyətli hadisə idi; bu hadisə beynəlxalq münasibətlərdə, o cümlədən, müstəmləkəçiliyin yaranması və inkişafında mühüm bir bağlayıcı zəncir oldu. 1453-cü ildə Konstantinopolun türklər tərəfindən ələ keçirilməsi və bunun ardınca onların Balkan yarımadasında və Yaxın Şərqdə

sürətlə irəliləməsi nəticəsində Qərbi Avropa ölkələri üçün Osmanlı imperiyası timsalında güclü təhlükə amili meydana gəlmişdi. Bununla əlaqədar Osmanlı–Avropa münasibətləri XVI-XVII əsrlər ən iri beynəlxalq ziddiyyət düyününə çevrilir. Bu münaqişədə Avropanın aparıcı dövlətlərinin əksəriyyətinin iqtisadi və siyasi maraqları çulğaşırdı.

Bir faktı da nəzərə almaq lazımdır ki, bu mərhələdə Avropa adi «dövlətlər yığnağı»ndan bir sistemə çevrilməkdə idi (7, 70). Bu prosesin ən mühüm əlamətləri ümumavropa bazarının formalaşması idi. Digər tərəfdən, Qərbi Avropa dövlətlərinin öz aralarında mövcud olan ziddiyyətlər və münaqişələr bu dövlətlərin Osmanlı imperiyasına qarşı çox ziddiyyətli münasibətini doğururdu. Levant bölgəsinə gəlincə, Osmanlı fəthləri ərəfəsində burada çox mürəkkəb siyasi vəziyyət bərqərar olmuşdu. Osmanlı imperiyasının yüksəlişi Aralıq dənizi bölgəsində mövcud olan dövlətlərin hərbi və siyasi zəifliyi fonunda baş verirdi. Tarixi retrospektiv baxımından Osmanlı dövləti ilə Misir məmlük dövləti arasında oxşarlıq var idi – hər ikisi ortodoksal islam bayrağı altında çıxış edən teokratiya idi və uzun müddət onların arasında nə siyasi-ideoloji, nə iqtisadi qarşıdurma olmamışdır. 1453-cü ildə Konstantinopolun süqutunadək Osmanlı hakimləri Məmlüklərin dini-siyasi nüfuzunu tanıyırdı, Məmlüklər də öz növbəsində onların hərəkətini ümummüsəlman işinin tərkib hissəsi kimi qəbul edirdilər (6, 23).

Lakin Konstantinopolun fəthindən sonra vəziyyət köklü şəkildə dəyişdi. Qahirədə başa düşdülər ki, onların sərhəddində öz yolu ilə gedən qüdrətli və dinamik bir dövlət inkişaf etməkdədir. Sultan II Mehmetin fəal xarici siyasəti Osmanlı-Məmlük münasibətlərinin kəskin pisləşməsinə səbəb oldu. Osmanlı-Məmlük ziddiyyətlərinin ilk açıq təzahürü 1463-cü ildə türk səfirinin Qahirədə Məmlük sultanı qarşısında diz üstə çökməkdən imtina etməsi səbəbi ilə baş verən diplomatik münaqişə oldu (6, 25). Konyanın alınması və 1468-ci ildə Qaramanın Osmanlı türklərinə qatılması isə genişmiqyaslı qarşıdurmanın başlanğıcını qoydu. Mübarizənin əsas meydanı Kiçik Asiyada hökmran olan Ramazanilər və Əlbistanda hökm sürən Zülqədərilərin dövlətləri idi. Levantda baş verən əsas hadisələr də elə Qahirə ilə İstanbul arasında gedən münaqişələr idi. Məmlüklər üçün vacib ticarət yolları və strateji xammal mənbələrinə nəzarət edən Osmanlılar hər vəchlə Misirin hərbi potensialını zəiflətməyə çalışırdılar. Əlbistan hakimi Ələ Üd-Dövlə ilə hərbi toqquşmalar 1486-1491-ci illərdə ilk Osmanlı-Məmlük müharibəsinə gətirib çıxardı. Türkləri üç dəfə məğlub edən Məmlüklər həlledici nəticə əldə edə bilmədilər (6, 25). 1491-ci ildə Tunisin vasitəçiliyi ilə Osmanlı-Məmlük sülhü imzalanır; sülhə görə, türklər Əlbistana və Kilikiyaya olan iddialarından əl çəkir və bu bölgələr faktiki Məmlüklərin nəzarəti altına düşür.

Misirlə Osmanlı imperiyası arasında qarşıdurmanı gücləndirən daha bir amil müsəlman icmalarının himayə və yardım üçün məhz türklərə müraciət etməsi idi. Məsələn, 1485-ci ildə İstanbula ispan zülmündən əziyyət çəkən Qrenada müsəlmanlarının səfirliyi gəlmişdi. İspaniya müsəlmanları II Bəya-

ziddən yardım istəmişdi (6, 26). Porta onların təkidini rədd etmədi və 1486-cı ildə Qərbi Aralıq dənizinə donanma göndərdi. Kamal Əli paşanın (məşhur Kamal Rəis) komandanlığı altında türk donanması İspaniya, İtaliya və Malta sahillərində bir neçə əməliyyat həyata keçirdilər. Türklərin hər bir qələbəsi Məmlüklərin ağır məğlubiyyəti ilə başa çatırdı; bu da, öz növbəsində, Məmlük sultanlarının həm beynəlxalq, həm də müsəlman icması üçün nüfuzunu aşağı salırdı.

Yaxın Şərqdə və həmçinin Levant bölgəsində bərqərar olmuş beynəlxalq vəziyyətdə hər iki dövlət arasında münasibətlər daha kəskin şəkil alır. 1502-ci ildən başlayaraq Məmlüklər ümumi düşmən sayıla biləcək Səfəvilərə qarşı türklərlə əməkdaşlıqdan imtina edirlər. Bu ərəfədə Osmanlı imperiyası xeyli ağır vəziyyətə düşmüşdü. Belə ki, Anadolunun şərqində, Qaramanda, habelə Suriyada (qeyd edək ki, bu ərazilər bizim tədqiqatın coğrafi çərçivəsinə daxildir) şiəliyin yayılması və Səfəvilərin tərəfdarlarının durmadan artması Osmanlılar üçün böyük təhlükə yaratmışdı. Digər tərəfdən, sultan II Mehmetin ölümündən sonra onun oğulları II Bəyazidlə Cem sultan arasında gedən taxt-tac mübarizəsi, Cemin öz qardaşına qarşı hərbi yardım almaq üçün Avropa saraylarını gəzməsi, Qaramanda türklərə qarşı üsyan (1500), habelə müsəlmanlara qarşı bəzi uğurlar qazanılması (1481-ci ildə Otrantonun türklərdən geri alınması, 1492-ci ildə ərəblərin Əndəlusdan qovulması və s.) Qərbdə Osmanlı imperiyasına qələbə ümidini artırmışdı (2, 131).

Məhz bu dövrdə Roma papaları Osmanlılara qarşı «səlib yürüşü» təbliğatını yenidən genişləndirmişdilər. Papa VI Aleksandr Borcia (1492-1503) Türkiyəyə qarşı səlib yürüşü təşkil etmək üçün 1500-cü ildə yeni «1/10 vergisi» toplanılması haqqında xüsusi fərman verdi (2, 131). Nəhayət, Osmanlıların Venesiya ilə müharibəsi (1499-1502) də, öz növbəsində, türk dövlətinin vəziyyətini ağırlaşdırırdı. Bu vəziyyətdə Misir Məmlükləri Osmanlılara yardım göstərə bilərdilər. Lakin məhz bu məqamda onlar İstanbulu cəzalandırmaq qərarına gəldilər. İsmayıl Səfəvinin genişlənən fəthləri və həmçinin portuqallarla əlaqələrinə əhəmiyyət verməyən Məmlüklər, görünür, Səfəvilərlə Osmanlılar arasında münaqişənin kəskinləşməsində maraqlı idilər. Misir sultanı Qansu əl-Quri bir düşmənini digərinin əlilə məhv etmək niyyətində idi. Hər halda, mənbələrdən belə məlum olur ki, Məmlüklər türklərin Səfəviləri darmadağın edəcəyinə inanmırdılar (6, 27-28).

Misirin üçüncü tərəf kimi özünü neytral aparma siyasəti İstanbulda açıq-aşkar düşmənçilik kimi qəbul edildi. Portanın xarici siyasət idarəsində Misirlə razılaşma tərəfdarlarının mövqeyi getdikcə zəifləyirdi; antiməmlük meyl isə artmaqda idi. Məhz bu sonuncu dairə İstanbulda hakimiyyətə I Səlim Yavuzu gətirdi (3, 35). Atası sultan II Bəyazidin sağlığında ikən taxta çıxmış I Səlim qısa bir müddətdə hərbi islahat keçirdi və böyük bir ordu səfərbər etdi. 1514-cü ilin mayında türk ordusu Səfəvilərə qarşı yürüşə başladı. Bu yürüşlə eyni vaxtda Qahirəyə Osmanlı səfirliyi gəldi və Məmlüklərə İsmayıl Səfəviyə qarşı ittifaq təklif olundu. Məmlük hökuməti təklifi qəti şəkildə rədd etdi və ənənəvi gözləmə mövqeyi tutdu. Maraqlıdır ki, Səfəvilər tərəfindən də Qahi-

rəyə analoji təklif edilmişdi və eyni cavab alınmışdı (2, 154).

1514-cü il avqustun 23-də Çaldıran düzündəki döyüşdə Osmanlı ordusu Səfəviləri məğlubiyyətə uğratdı – bu, Məmlüklər üçün gözlənilməz xəbər idi. Sonrakı hadisələr də göstərir ki, Qahirənin şübhələri və qorxuları əbəs deyilmiş: Çaldıran döyüşü Misir sultanlığının da taleyini həll etdi. Türk tarixçisi V.Qocatürk yazır ki, sultan Səlim hakimiyyəti ələ keçirmək ərəfəsində yeniçərilərə bildirmişdi: «Mən padşah olsam, niyyətim Ərəbistanı çərkəslərdən, Əcəm şəhərini qızılbaşlılardan təmizləməkdir» (1, 145). 1515-ci ilin yazında Osmanlıların hərbi hazırlıqları haqqında ilk xəbərlər Qahirəyə gəlib çatmağa başladı. Ordu və donanma Misirə yürüşə hazır vəziyyətdə idi. İstanbulda Məmlüklərə qarşı mübarizə hər bir müsəlmanın vacib vəzifəsi kimi qəbul edilirdi (6, 29). Türk üləmaları Məmlüklərə qarşı müharibəni əsaslandıran 3 fitva vermişdilər. İstanbulun baş müftisi elan edirdi ki, «kafirlərə kömək edən özü kafirdir» (5, 60).

Artıq 1515-ci ilin mayına doğru türklər Məmlüklərin qəyyumluğu altında olan Zülqədərilərin qoşununu darmadağın etdilər, onun başını isə Qahirəyə göndərdilər. İ.İvanovun yazdığı kimi, «bu, müharibənin faktiki elanı demək idi» (6, 29). 1515-ci ilin aprelində Qansu əl-Quri müharibəyə hazırlıq görməyə başladı, oktyabrın 3-də isə ümumi səfərbərlik elan olundu. Gözlənilən müharibədən xalq kütlələrinin narazı olduğunu bilən Məmlük sultanı hər vəchlə hərbi əməliyyatları yubatmağa çalışırdı. 1516-cı il avqustun 5-də türk qoşunları sərhəddi keçdilər. Avqustun 24-də Mərc-Dəbiq yaxınlığında (Hələbdən şimalda) iki ordu üz üzə gəldi. Gunortaya yaxın Məmlüklər qaçmağa başladı. Sultan Qansu əl-Quri özünü qətlə yeritdi. 1516-cı il avqustun 28-də sultan I Səlim Hələbə daxil oldu. Suriya (Livan və Fələstinlə birlikdə) Osmanlı imperiyasına ilhaq olundu. Bununla da müxtəlif Şərq ölkələrindən Levant sahillərinə gələn ənənəvi karvan yollarının mühüm məntəqələri olan Hələb, Şam (Dəməşq), Trablis, Beyrut Osmanlı Türkiyəsinin əlinə keçdi. Mərcdabiq döyüşündə xəlifə əl-Mütəvəkkil də Osmanlılara təslim oldu.

1516-cı il sentyabrın 20-də I Səlim Xamaya daxil oldu, sentyabrın 22-də – Xums, oktyabrın 9-da isə Dəməşq Osmanlıların əlinə keçdi (8, 395). Dəbiq çölündəki qələbə türkləri Levantın sahibinə çevirdi. 1516-cı il noyabrın 20-də türk ordusu Qahirəyə yaxınlaşdı, şəhər 1517-ci il yanvarın 31-də təslim oldu – Misir Osmanlı imperiyasının əyalətlərindən birinə çevrildi. Misirin fəthi böyük siyasi, o cümlədən, beynəlxalq yekuna malik idi: Osmanlılar Misirlə yanaşı, ona məxsus olan Hicazı (Məkkə və Mədinə kimi müqəddəs şəhərlərlə birlikdə) da ələ keçirdilər; Osmanlılar müsəlman dünyası üçün yeganə xilaskara çevrildilər. Konkret Levant bölgəsinə gəlincə, indi Şərqi Aralıq dənizi Osmanlı imperiyasının daxili gölünə çevrilmişdi.

Müstəsna əlverişli coğrafi mövqeyi olan Levant hələ qədim dövrlərdən Şərqlə Qərb arasında ticarətdə vasitəçi idi: onun Trablis, Dəməşq, Beyrut, Sidon və Tir kimi şəhərləri mühüm ticarət məntəqələri idi. Osmanlı fəthlərindən sonra Levantın Avropa ilə ticarəti xeyli məhdudlaşdı. Osmanlıların Qərbi Avropadakı fəthləri bir müddət Avropanı Levantda baş verənlərdən

uzaqlaşdırmışdı. Levant bölgəsinə məhz ingilislərin maraq göstərməsi təsadüfi deyil. Bu mərhələdə İspaniya və Portuqaliya Hindistana dəniz yolunun kəşfi sayəsində Levanta əvvəlki üstünlüyü vermirdilər. Digər tərəfdən, Hindistanla ticarətdə Portuqaliya Fars körfəzi uğrunda gərgin mübarizəyə başlamışdı. Fars körfəzi uğrunda mübarizədə portuqallar Səfəvilərdən bacarıqla istifadə edə bilirdilər. Fransaya gəlincə, burada bir neçə amili nəzərə almaq lazımdır. İspaniya ilə Fransa arasında mühüm fərq onda idi ki, fransız zadəganları və fransız kralının onları ölkənin iqtisadi inkişafından asılı etməyən gəlir mənbəyi yox idi. Fransanın nə amerikan qızılı, nə Potosi mədənləri, nə varlı holland tacirləri var idi. Fransız zadəganları ticarətlə və sahibkarlıqla məşğul olmağı alçaldıcı hesab edirdilər; onlar üçün müharibə yeganə layiqli məşğuliyyət sahəsi idi. Ona görə də, İtaliyanın talan edilməsi fransız zadəganlarının təsəvvüründə xaç yürüşləri ideyası ilə assosiasiya olunurdu (9, 146-147). 1494-cü ildə başlamış «İtaliya müharibələri» 1559-cu ilədək Fransanın xarici siyasətində əsas istiqamət oldu və Levant bölgəsindən onun diqqətini ayırdı.

Qərbə sıxışdırılmış və Yüzillik müharibədən (1337-1453) sonra qitədə bütün mülklərin itirmiş İngiltərə isə Avropa siyasətindən ayrı düşmüşdü və XVI əsrin ortalarınadək Avropa siyasətində ikinci dərəcəli rol oynayırdı. XVI əsrin birinci rübü isə onun üçün daxili qüvvələrin konsolidasiyası və dünyada gedən iri siyasi aksiyalardan kənarlaşma dövrü olmuşdur. Əslində bu siyasi «sakitlik» İngiltərənin sonrakı əsrlərdə aparmış olduğu xarici siyasətində realizmin başlanğıcı idi (9, 147). Bu siyasət belə bir fakta əsaslanırdı ki, İngiltərədə zadəganların böyük bir hissəsi iri sahibkarlara çevrilmişdi. Müasirlərdən birinin yazdığına görə, İngiltərədə «hər addım – şillinq, hər söz – sövdələşmədir» (9, 147). Sahibkarlığın sürətlə inkişafı İngiltərənin beynəlxalq ticarət əlaqələrində fəal iştirakı üçün çox böyük zəmin idi. İngilis istehsalında baş verən struktur dəyişiklikləri ticarətin xarakterinə də təsir göstərməyə bilməzdi. İngiltərə üçün daha geniş istehlak bazalarına ehtiyac var idi. Bu Avropadan kənarda olmalı idi və Levant bölgəsi İngiltərəni cəlb etməyə bilməzdi. Yuxarıda qeyd etdiyimiz kimi, bu bölgədə mövqe əldə etmək üçün isə İngiltərə Osmanlı imperiyası ilə münasibətləri fəallaşdırmalı idi.

XVI əsrin I yarısında İngiltərənin Osmanlı imperiyası ilə münasibətləri çox ziddiyyətli səciyyə daşımışdır və onu birmənalı qiymətləndirmək olmaz. Lakin bir faktı əminliklə demək olar ki, bu dövrdə məhz «Şərq məsələsi»ndə İngiltərənin siyasi maraqlarının iqtisadi maraqlarla açıq-aşkar əvəz olunması nəzərə çarpır.

**ƏDƏBİYYAT**


1. Kocatürk Vasif Mahir. Osmanlı padişahları. Ankara: 1957
2. Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı: 1996
3. Yeni Rehber ensiklopedisi. İstanbul: 1994, c.XVI
4. Мэн Т. Богатство Англии во внешней торговле. В книге: Меркантилизм. М.: 1935
5. Бартольд В.В. Сочинения. М.: 1966, т.6
6. Иванов И.А. Османское завоевание арабских стран. М.: 1984

7. Ивонин Е.А. Западная Европа и Османская империя во второй половине 15 – начале 16 вв. // Вопросы истории, М.: 1982, № 4
8. История стран Зарубежной Азии в средние века. М.: 1970
9. Сказкин С.Д. Из истории социально-политической и духовной жизни Западной Европы в средние века. М.: 1981
10. Тарле Е.В. Очерки истории раннеколониальной политики западноевропейских государств. М.: 1965

## МЕЖДУНАРОДНОЕ ПОЛОЖЕНИЕ В ЛЕВАНТЕ НА РУБЕЖЕ XV-XVI ВВ.

**С.А.ЗЕЙНАЛОВА**

### РЕЗЮМЕ

Благодаря исключительно удобному географическому положению, Левант еще с древности являлся посредником в торговле между Востоком и Западом: его такие города, как Триполи, Дамаск, Бейрут и Тир были важными торговыми пунктами.

После Османских завоеваний торговля Леванта с Европой значительно ограничилась. Завоевания Османов в Западной Европе на время отдалили Европу от событий, происходящих в Леванте.

Притесненная на запад и потерявшая после Столетней войны (1337-1453) все свои владения на материке, Англия была оторвана от европейской политики и до середины XVI века играла второстепенную роль в европейской политике. Быстрое развитие предпринимательства создавало условия для активного участия Англии в международных торговых связях. Структурные изменения, происходящие в английском производстве, не могли не оказать влияние на характер торговли. Англия нуждалась в широких рынках сбыта. С этой целью левантийский регион не мог не привлекать Англию.

**Ключевые слова:** Средиземноморье, дипломатия, торговля, Англия, Османы

## THE INTERNATIONAL SITUATION IN LEVANT IN THE XV-XVI CENTURIES

**S.A.ZEYNALOVA**

### SUMMARY

Thanks to its extremely beneficial geographical location, Levant has always been an important trade intermediary between East and West. Such cities of Levant, as Tripoli, Damascus, Beirut and Tire were major trade hubs.

After Ottoman conquests the trade relations between Levant and Europe got significantly limited. Ottoman conquests temporarily put the Western Europe aside from Levant.

After losing most of its major possessions on the continent during the Hundred Years` War (1337-1453) England was put aside from the politics of Europe and became a secondary player till the middle of the XV century. The fast growth of entrepreneurship supported England`s active role in the international trade relations. Structural changes occurring in entrepreneurship in England affected the country’s international trade policy. In this regard, Levant was of great interest for England.

**Key words:** Mediterranean, diplomacy, trade, England, Ottomans